**Yaponiya və Dünya Bankının 2022-2023-cü tədris illəri üzrə birgə həyata keçirdiyi təhsil təqaüd proqramı**

Yaponiya və Dünya Bankı tərəfindən 2022-2023-cü tədris illəri üçün Amerika, Avropa, Afrika, Okeaniya və Yaponiyanın 26 ali təhsil müəssisəsində müxtəlif ixtisaslar üzrə istedadlı gənclərin magistratura səviyyəsində təhsil məqsədilə birgə həyata keçirilən təqaüd proqramına sənəd qəbulu elan edilib.

**Təhsil səviyyəsi:** magistratura

**Tədris dili:** ingilis dili

**İxtisaslar:** İxtisaslar haqqında məlumatı **keçidə** daxil olaraq əldə edə bilərsiniz.

**Maliyyələşmə:** Təhsil haqqı, tibbi sığorta, yol xərci və aylıq təqaüd (təqaüd ölkəsindən asılı olaraq dəyişir).

**Son tarix:** Sənəd qəbulu prosesi 2 mərhələdən ibarətdir. Müraciət tarixləri müvafiq olaraq **17 yanvar-28 fevral 2022-ci il** (6 universitet üzrə) və **29 mart-27 may 2022-ci il** (20 universitet üzrə) qeyd olunmuşdur.

**Təqaüd proqramı haqqında məlumatları keçidə daxil olaraq əldə edə bilərsiniz.**